BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3* *Humanitar elmlər seriyası* *2007*

## XIX ƏSRDƏ BOLQARISTANDA MƏDƏNİ-MAARİFİN VƏZİYYƏTİ

**Z.N.NURİYEVA**
***Bakı Dövlət Universiteti***

XIX əsrin əvvəllərində Bolqarıstanda kapitalist münasibətlərinin inkişafı, iqtisadi yüksəliş, sosial, siyasi, mədəni-maarif sahəsində baş verən dəyişikliklər bolqar millətinin formalaşmasını sürətləndirdi. Bolqarıstanın elm və mədəniyyətinin inkişafı qədim yunanların, romalıların, frakiyalıların mədəniyyəti ilə bağlı olmuşdur. Yadelli işğalçıların bolqar xalqının mədəni inkişafını ləngitməsinə baxmayaraq, onun lap qədimdən mövcud olan mədəni-maarif ənənələrini tamamilə məhv edə bilməmişdi. Amma milli şüurun mədəniyyətin formalaşmasında maarifin inkişafına böyük ehtiyac vardır. Əsrlər boyu Bolqarıstan maarifinin yeganə tədris ocağı kilsə hücrələrində yerləşən keliyno-dini məktəbləri idi.

Bəzi məlumatlara görə həmin məktəblərin sayı 200-dən artıq olmuşdur (1), Kilsədə yerləşən bu məktblərin ilk müəllimləri olan rahib və keşişlər bir neçə illik təhsil müddətində şagirdlərə kilsə-slavyan əlifba yazısı öyrədirdilər (2). Əlifbanı öyrənməklə bərabər dua kitabını əzbər bildikdən sonra təhsil başa çatmış hesab olunurdu. Məktəbdə oxuyarkən şagirdlər həm də kilsə qaydalarını mənimsəyir, nəğmə və mahnılarını öyrənir, əsas diqqəti dini kitabların köçürülməsinə verirdilər. Ona görə də bu məktəbləri bitirənlər yalnız oxumaq və yazmaq bacarırdılar (3). XIX əsrin birinci yarısında ikona yazan-Samokovski və Bansko kimi iki məşhur məktəb tikilmişdi. Samokovski məktəbində məşhur rəssamlar Zaxar Zoqraf və onun qardaşı Dmitri Zoqrafın, Rilski monastrında isə Bansko məktəbinin nümayəndələri Dmitri Molerov və onun oğlu Simeon Molerovun əsərləri bu günə qədər də saxlanılır (4).

Dini təhsil sisteminin XIX əsrin 30-cu illərinin ortalarına qədər davam etdiyi göstərilsə də kəndlərdə, çox da iri olmayan yoxsul şəhərlərdə XIX əsrin ikinci yarısının sonunadək fəaliyyət göstərmişdir (5). 1816-cı ildə tikilmiş Presvyotoy Boqorodiç mitropolitiya kilsəsinin həyətində dini məktəb yerləşirdi. Məktəbin bərpası məqsədilə qazıntılar aparılarkən çox qədimdən bolqar memarlıq abidələrinə məxsus tapıntılar aşkar edilmişdi. Hələ milli oyanışdan xeyli əvvəl Troyanski monastrı maarifin mərkəzi olmuşdu. Həmin monastrın nəzdində əvvəllər müstəqil kilsə uğrunda mübarizəyə səsləyən, sonralar isə yaxın və uzaq kəndlərin uşaqları üçün məktəb açılmışdı. Sviştovda dirçəliş dövrünün görkəmli maarifçiləri Emmanuil Vaskidoviç və Xristaki Pavloviç fəaliyyət göstərmişlər. Bolqarıstanda məşhur olan bütöv bir ziyalı dəstə-Aleko Konstantinov, Draqan Çankov, Dmitr Çenoviç, Aleksandr Bojinov, Çvyatko Radoslavov, prof. İvan Şişmanov və b. burada doğulmuşlar (6).

Vaxtilə Paisi öz çağırışı ilə həm müasirlərinə, həm də gələcək nəslə təsir göstərmiş, milli şüurun oyanmasına ilk qığılcım buraxmış, xalqı bolqar məktəbinin yaradılmasına, mədəniyyətinin inkişafını yüksəltməyə səsləmiş, vətəni, ana dilini sevməyi nəsihət etmişdi. Nikitin onun «Slavyan bolqar tarixinin» milli dirçəlişin başlanğıc mərhələsində vacib sənəd olduğunu qiymətləndirmişdir (7).

Bolqarlar XIX əsrin birinci yarısında Avropa mədəniyyəti ilə əlaqə yaradaraq maariflənməyə can atırdılar. Tədricən köhnə dini məktəbləri yeni metod və proqramlarla tədris olunan dünyəvi məktəblərlə əvəz etmək lazım idi (8). Çünki bolqar maarifi yunanların təsiri altında idi. Həmin yüzillikdə təhsilin qarşısındakı şərt maarifin gələcək inkişafı üçün zəruri idi. O zaman üç növ məktəb mövcud idi. Onlardan birini rahiblər təşkil etmiş, digərini yerli keşişlər açmış, üçüncüsü isə kübar şəxslərə məxsus idi. Türkiyə imperiyasında güclü iqtisadi və mədəni mövqeyə malik olan yunan ticarət burjuaziyası bolqar mədəniyyəti üzərində ağalığı bərpa etmək planı həyat keçirir, bir çox şəhərlərdə yeni yunan məktəbləri açırdılar.

XIX əsrin birinci rübündə maddi cəhətdən güclənən bolqar ticarət-sənaye burjuaziyası yeni məktəblərin yaradılmasını zəruri hesab edirlər. Bir tərəfdən dünyəvi təhsilə tələbatın artması, digər tərəfdən daxili bazarda yunan və bolqar burjuaziyasının mübarizəsi sərbəst bolqar təhsilinin yaradılmasını tələb edirdi. İqtisadi irəliləyiş bolqar tacir və sənətkarlarının tələbatını artırırdı. Yeni məktəblərin açılması mədəni-maarif hərəkatı milli və dünyəvi xarakter daşıyırdı (9). Bolqar burjuaziyası və qismən tacirlərdən ibarət varlı, adlı-sanlı tanınmış əsilzadələr Bolqarıstanda məktəb açılmasına vəsait ayırdılar. XIX əsrin əvvəllərində qədim bolqar yazılarından başqa qədim yunan və yeni yunan dilini öyrədən ellin-bolqar dini məktəbi açıldı. Şəhərlərin inkişafı ilə bağlı yeni ictimai məktəblər bolqar təhsil sisteminin inkişafı yollarında irəliyə doğru addım idi (10).

Dirçəliş illərində Elen maarifin mərkəzinə çevrilmiş və 1820-ci ildə yerli sənətkarların vəsaiti ilə ilk ictimai məktəb binası tikilmişdi. Sviştov məktəbində təhsilini başa vuran tanınmış maarifçi Doyno Qrammatikin oğlu Andrey Robovski burada müəllimlik etmişdir. Az sonra onun şagirdlərindən İvan Momçilov Afina və Odessada təhsilni başa vurduqdan sonra müəllimlik etməklə bərabər tədris proqramında yeniliklər etmişdi. Onun vaxtında və sonralar Nikol Mixalkovskinin dövründə elen sinif məktəbi yüksək səviyyəli müəllim kadrları hazırlayırdı. Məktəbdə ana dili, tarix, estetika fənləri öyrədilirdi. Görkəmli xadimlər Petko Slaveykov, Dobri Voynikov, Dobri Çintulov, İvan Kasabov, Nikola Kozlov və b. burada oxumuşlar (11).

XIX əsrin əvvəllərində iki dilli-yunan-bolqar məktəbləri meydana gəldi. Yunan məktəblərində təhsil almış gənc bolqar müəllimləri yunan və bolqar dillərində dərs deyirdilər. 1815-1820-ci illərdə Sviştovda, Koteldə, Slivendə E.Vaskidoviç, İ.Seliminsko, Xr.Pavloviç, K.Fotinov və başqa bolqar maarifçilərinin rəhbərliyi altında ikidilli məktəblərin əsası qoyulmuşdu. Az sonra Bolqarıstanın iri şəhərlərində (Ruse, Vidin, Tırnov, Plovdiv və b.) iki dilli məktəblərdən başqa dünyəvi təhsil verən məktəblər də fəaliyyət göstərirdi (12).

XIX əsrin birinci rübündə Bolqarıstanda yunan təhsilinin yayılması üçün daha əlverişli şərait yaranmışdı. Bolqar tacir və sənətkarlarının

dünyəvi elmi-biliklərə ehtiyacının artmasına baxmayaraq məktəb yaratmaq üçün lazımı dərəcədə varlı və təşkilatçı deyildi. Dünyəvi təhsilə olan tələbatı təmin etmək üçün şəhər burjuaziyası yunan məktəbinə müraciət edirdi. Bütün bunlar şəhərdə yaşayan varlı boqarları öz uşaqlarını yunan məktəblərinə təhsil almağa göndərməyə məcbur edirdi. Bolqarıstanın iri iqtisadi və inzibati mərkəzlərində açılan yunan məktəblərinə bolqar gənclərinin daxil olması ilbəil artırdı. Bu məktəblərdə keçirilən dərslərin proqramı açıq millətçi xarakteri daşıyırdı. Yunan müəllimləri qədim yunan mədəniyyətini təbliğ edirdilər. Bunun nəticəsində belə məktəbləri bitirən çoxlu sayda bolqar gəncləri vətənlərinə olan məhəbbətdən məhrum olur, öz ana dili və xalqından üz döndərirdilər. Bolqarıstanın xaricində Kirdoni, Afina, Androse adasında məşhur olan yunan məktəblərində təhsil alan bolqar gəncləri arasında yunan təbliğatı daha güclü aparılırdı (13). Yunan təhsilinin təbliğatı o dərəcədə güclü olmuşdur ki, hətta bolqar mədəni-maarif hərəkatının bəzi nümayəndələri Bolqarıstanda «ellin-yunan», «ellin-bolqar» məktəbləri açmışdılar. Rayno Popoviç Koteldə (1819) və Karlovda (1826) Emmanuil Vaskidoviç və Xristaki Pavloviç Sviştovda, Konstantin Fotinov Smirnedə belə məktəblər açmışlar (14).

Xaricdə və yarımadada ticarətin böyük hissəsinin yunanların əlində olduğuna görə yadelli ölkələrlə ticarət aparmaq məqsədilə bolqarlar yunan dilini öyrənməyə məcbur idilər. Varlı tacir təbəqələri arasında yalnız Bolqarıstanda deyil bütün türk imperiyasında da yunan dili geniş yayılmışdır. İlk növbədə yunan kilsə məktəbləri vasitəsilə yunanlar bolqarlar üzərində təsiri genişləndirirdi. Bolqarıstanın demək olar bütün iri şəhərlərində – Tırnov, Sviştov, Kotel, Sliven, Plovdiv, Odrin və başqalarında yunan məktəbləri açılmışdır. Yunan təbliğatının təsiri altında varlı bolqarlar öz uşaqlarına yunan adı qoyur və yunan məktəblərinə göndərirdilər (15).

Ellinizm burjuaziyanın yuxarı təbəqəsi – varlı tacir və sənətkarların arasında daha çox nüfuz qazanırdı. Şəhərin yoxsul əhalisi və kəndlilər yunan təbliğatından kənarda qalırdılar. Bir çox şəhərlərdə ellinizmin dayağı yaradılırdı. Məktəblərdə yunan təbliğatının güclənməsi bolqar əhalisi arasında təhlükəli parçalanmaya səbəb olurdu.

Bütün bunlarla yanaşı, bolqar milli oyanışında yunan təhsilinin təsirinin düzgün qiyməti və müsbət nəticəsini vermək lazımdır. Varlı bolqar gənclərinin yunan məktəblərindəki təhsili bolqar milli oyanışına əhəmiyyətli təsiri olmuşdu. Yunan məktəblərində bolqar gəncləri əhatəli biliyə malik olmaqla bərabər, başqa ölkələrin burjuaziyası haqqında məlumatlarla tanış olmuşlar. Məşhur yunan müəllimləri Vulqaris Korais və Kairis bolqar gənclərinə daha çox təsir göstərmişlər. Elə bunun nəticəsində də hələ məktəbdə olarkən bəzi şagirdlər, bolqar xalqının mədəniyyətini yüksəltmək naminə cəmiyyət yaratmışlar. Bu cəmiyyətə İvan Dobrovskiy, Comakov, İllarion Makariopolskiy və b. daxil idilər. XIX əsrin birinci yarısında görkəmli xadimlər Aprilov, Neofit Rilskiy, N.Bozveli, Rakovskiy, Seleminskiy və bir çox başqaları yunan məktəblərində təhsil almışlar. Yunan təhsilinin böyük təsirinə və üstünlüklərinə baxmayaraq, bolqar mədəni-maarif hərəkatını məhv edə bilmədilər (16).

Bolqar tacirləri öz uşaqlarını xarici məktəb və universitetlərdə təhsil almağa göndərdiyi bir vaxtda Petr Qeroviç Beron Bolqarıstanın maarifçilik tarixində mühüm hadisə olan ilk bolqar əlifbasını tərtib edir (17). Beron (1800-1871) Kotel şəhərində anadan olmuş əvvəl Safroniy

Vraçanskinin dini məktəbində oxumuşdur. O, ilk bolqardır ki, avropa təhsili almışdır. Əvvəl Yunanıstanda, sonra alman knyazlığında oxumuş 1831-ci ildə tibb elmləri doktoru dərəcəsi almış, Buxarestdə müəllimlik etmiş, sonralar ömrünün sonunadək tibb və başqa elmlərlə məşğul olmuşdu (18). Bolqar təhsilinin, maarifinin inkişafında əhəmiyyətli rol oynayan P.Beronun tərtib etdiyi ilk bolqar əlifbası «Рыбный букварь» 1824-cü ildə Braşov şəhərində nəşr olunmuşdu. (Üzərində delfin rəsmi təsvir edilmiş əlifba balıq tacirlərinin vəsaiti hesabına çapdan çıxıb). Əlifbanın meydana gəlməsi iqtisadi yüksəlişlə bir vaxta düşmüş iqtisadiyyatın inkişafına, yeni burjua münasibətlərinin tələblərinə cavab verirdi. Beron elmi dini xurafatdan qorumaqla kilsə təhsil sisteminin əleyhinə çıxış edərək «Lankasterska» qarşılıqlı təhsil sisteminin vacibliyini göstərmişdi (19). İlk dünyavi bolqar dərsliyi olan əlifba məktəblərdə çevriliş edərək müəllimləri orta əsrlərin köhnəliyindən ayırdı, dərslər bolqar dilində tədris olunmağa başladı dindən dünyavi ədəbiyyata tam dönüş yarandı. Səkkiz hissədən ibarət olan əlifbada müəllimlərə metodik göstəriş, bolqar dilinin qrammatikası, hesab, təbiət elmləri, ədəbiyyat, tarix, müxtəlif məsləhətlər, atalar sözləri, böyük insanlar, şəxsiyyətlərin həyat tarixi haqqında qısa məlumatlar verməklə bərabər həm də şagirdlər üçün kiçik ensiklopediya xarakteri daşıyırdı (20). Bolqar məktəblərinin ilk vəsaiti hesab edilən bu əlifba dəfələrlə nəşr edilərək təhsilin inkişafına böyük təsir göstərmişdir. Bolqarlar yaşayan bütün əyalətlərdə ədəbi dilin formalaşması prosesi başladı.

O zaman Bolqarıstan ticarət burjuaziyası nümayəndələri yunan maarifçiliyi ilə maraqlanır, Rusiya və Rumıniyadakı bolqar mühacirləri isə rus və Qərbi Avropa mədəniyyəti təsiri altına düşmüşlər. XIX əsrin 30-cu illərində rus alimi Juri İvanovic Venelin slavyan xalqlarının ilk növbədə, Bolqarıstanın tarixi ilə tanış olmuş, ətraflı material toplayaraq bir sıra tarixi əsərlər yazmışdı. Beronun əlifbasının təsiri altında yazdığı «Древние и нынешние болгары» kitabı 1829-cu ildə rus dilində çap olunmuşdu. Slavyan mənşəli bolqarlar və onların ruslarla yaxınlığından bəhs edən kitab bolqar mühacirləri tərəfindən sevinclə qarşılanmışdı (21). Bolqar maarifinin inkişafında böyük rol oynamış Venelin kitabı Odessada yaşayan bolqar kommersantı və ictimai xadimi, ixtisasca həkim olan Vasili Aprilovun (1789-1847) aktiv fəaliyyətinə təkan verdi. Ömrünün çoxunu bolqar mədəniyyətinin yalnız ellinizm mədəniyyəti yolu ilə inkişaf edəcəyinə inanan Aprilov Venelin əsərlərini oxuduqdan sonra yeni bolqar təhsilinin təşkilinə inanır və onun fəal iştirakı ilə Qabrov şəhərində qarşılıqlı təhsil verən məktəb yaradılır (22).

XIX əsrin ikinci rübündə Qabrov Bolqarıstanın, əsas iqtisadi mərkəzi olmaqla bərabər əhalisi demək olar ki, təmiz bolqarlardan ibarət idi. Çoxlu sayda sənətkarlar sex təşkilatlarında birləşərək, tacirlər, ticarət burjuaziyası ilə birlikdə maarifçilik fəaliyyətinin inkişafı uğrunda mübarizə aparırdılar. Bolqar taciri və maarifçisi V.Aprilovun təşəbbüsü və köməkliyi sayəsində 2 yanvar 1835-ci ildə Qabrov şəhərində qarşılıqlı təhsilli ilk dünyəvi məktəb açıldı. Bu məktəb sonralar onun adını daşıyan ilk gimnaziya kimi məşhur olmuşdur (23). Qabrov məktəbinin direktoru və müəllimi tanınmış maarifçi, təcrübəli müəllim, bir çox dərsliklərin müəllifi, özü rahib olmasına baxmayaraq bolqar qrammatikasını tərtib edən Neofit Rilski (1793-1881) olmuşdur. Onun fikrincə, ilk növbədə məktəb sonra kilsə tikmək lazımdır. Qabrov şəhərində dünyəvi

məktəbin açılması bolqar maarifinin inkişafında xüsusi əhəmiyyəti olmuşdur. Məktəbdə dərslər yeni tələblərə uyğun şəkildə aparılırdı. Rilski rus kitabları və dərsliklərini bolqar dilinə tərcümə etmişdir. Dünyəvi elmlər əsasən bolqar dilində tədris olunurdu. İlk illər məktəbə şagirdlər Bolqarıstanın müxtəlif yerlərindən qəbul edilir və yoxsul uşaqlar pulsuz təhsil alırdılar. Məktəbdə keçirilən qarşılıqlı təhsil metodu yeni məktəblər üçün müəllim kadrları hazırlamaq imkanına səbəb olurdu. Məktəb dini kilsə təhsilindən azad və müstəqil idi (24).

Təcrübəli maarifçilər Aprilov, Palauzov, Rilski ibtidai siniflərdə qarışıq təhsilin didaktiv, nəsihət verici üsulundan istifadəni məsləhət gördülər. Onların mədəni-maarif fəaliyyəti sayəsində Qabrov məktəbi tez bir zamanda maarifin inkişafına güclü təkan verdi və bütün Bolqarıstanda yayıldı. Qısa müddət ərzində qarşılıqlı təhsil metodu ilə təhsil verən 50-dən çox dünyəvi məktəb yaradıldı. Elə həmin dövrdə ilk qız məktəbinin əsası qoyuldu. 1836-cı ildə Xristaki Pavloviç Qabrovo məktəb sisteminin təsiri altında özünün ellin-bolqar qarşılıqlı məktəbini təmiz bolqar məktəbinə çevirdi. Yenə də həmin ildə ticarət şəhəri Sviştovda yunan məktəbi slavyan-bolqar məktəbinə çevrildi. Varlı və zəngin kimi tanınan Çalıkov qardaşları 1836-cı ildə Koprivştiçdə yeni bolqar məktəbinin əsasını qoydular (25).

1836-1839-cu illərdə Petr Slaveykovun uzun müddət müəllimlik etdiyi və XIX əsrin sonlarına qədər fəaliyyət göstərmiş Trevnenskaya məktəbi tikilmişdi. Yerli xeyriyyəçi Hacı Stoyan Nikolovun təşəbbüsü və vəsaiti ilə 1842-1844-cü illərdə Sevliev şəhərinin mərkəzində iki mərtəbəli dünyəvi təhsil verən məktəb tikilmişdi. Şair və inqilabçı P. Slaveykov 18 il bu məktəbdə qarşılıqlı təhsil metodunu tədris etmişdir. Halhazırda həmin məktəb binasında Tarix müzeyi yerləşib, qarşısında isə Hacı Stoyan Nikolovun abidəsi qoyulub (26).

Qabrovo məktəbinin ardınca Kopriviştiç. Panaqyrişt, Sopot, Karlov, Tırnov, Trevn, Kazanlık, Sviştov, Kolofer, Sofiya, Kotel, Vraç, Rumuk, Elen, Pazardjik, Stara-Zaqor, və b. şəhərlərdə məktəblər açıldı (27). Bu hərəkatın yaradıcısı və təşkilatçısı V.Aprilov 1840-cı ildə öz zəhmətinin bəhrəsini artıq on iki yeni bolqar məktəbinin yaradılmasında gördü. XIX əsrin ortalarında demək olar ki, bütün bolqar şəhərlərində hətta iri kəndlərdə qarşılıqlı tədris məktəbləri açıldı. 1845-ci ildə xalq məktəblərinin sayı artaraq 53-ə çatmışdı. Eyni zamanda dərsliklər də tərtib edilib geniş yayılırdı (28). 1835-ci ildən 1845-ci ilədək Bolqarıstanda qarşılıqlı təhsil verən çoxsaylı kişi məktəbləri yaradılmışdı.

XIX əsrin birinci yarısının son onilliyində qadın təhsili də inkişaf edirdi. Feodal münasibətlərinin ağalığı dövründə qadınlar azadlıqdan məhrum olmaqla bərabər ölkənin ictimai, mədəni həyatında iştirak etmək hüququna malik deyildilər. XIX əsrin 20-ci illərində az qismdə olsada bəzi valideynlər öz qızlarının dini məktəblərdə oxumasına icazə vermələrinə baxmayaraq qızların məktəbə getməsi qəbahət sayılırdı. 1840-cı ildə Plevna şəhərində ilk daimi qadın məktəbi açıldı. Məktəbdə müəllimliyə başlayan Anastasiya Dimitrova Kaloferdə dini təhsil almışdı. Onun yetişdirmələrindən bir neçəsi Vratsedə (1843), Sviştovda (1845), Loveçdə və başqa şəhərlərdə qadın məktəbləri açmışlar. XIX əsrin ortalarında qadın məktəblərinin sayı sürətlə artırdı.

XIX əsrin ikinci rübündə yunan və bolqar burjuaziyası arasında ziddiyyətlərin kəskinləşməsi nəticəsində Yunanıstanda təhsil almağa can

atan bolqar gənclərinin sayı əhəmiyyətli dərəcədə zəiflədi. Bolqarıstan təhsil sistemində dünyəvi məktəblərin formalaşması ilə yanaşı yunan mədəniyyəti təsirindən rus mədəniyyəti təsirinə keçirilməsi halları çoxalırdı. Bu Rusiya dövlətinin tam düşünülmüş istiqamətdə məqsədyönlü siyasəti idi. Artıq XIX əsrin 30-40-cı illərində Rusiyaya oxumağa gələn bolqar gənclərinə təqaüd verilməyə başlandı. Bunun müqabilində də Rusiyanın təhsil ocaqlarında oxumağa gələnlərin sayı artırdı (29). Gənc bolqar ziyalı dəstələri əvvəllər də Rusiyada, bir qismi isə Yunanıstan, Valaxiya, Fransa, Serbiya, İtaliya və başqa ölkələrdə təhsil almışlar. Amma Rusiyanın bolqar təhsil sistemində təsirinin güclənməsinin başqa bir səbəbi də orada rus dərsliklərinin, ədəbiyyatların geniş yayılması olmuşdur. Bundan başqa Rusiyanın təhsil, maarif və kilsə təşkilatları bir çox bolqar təhsil müəssisələrinə ilk növbədə qız məktəblərinə maddi kömək göstərirdilər. 1840-1850-ci illərdə Rusiyada təhsil alanlar öz vətənlərinə qayıdaraq mədəni-maarif hərəkatının tərəqqisinin yeni mərhələsini qoydular. Onların fəaliyyəti nəticəsində yüksək səviyyəli məktəblər açılırdı.

Qarşılıqlı təhsil məktəblərinin yaradılmasından sonra sinif məktəblərinin əsası qoyuldu. Bolqar təhsilinin inkişafında növbəti addım olan ilk yeni tipli sinif məktəbi N.Rilskonun şagirdi olmuş ictimai xadim və maarifçi Nayden Qerov (1823-1900) tərəfindən 1846-cı ildə ticarət və sənətkarlıq şəhəri Koprivştiçdə açıldı. Şagirdlərin yaş səviyyəsinə əsasən siniflərə bölündüyünə görə sinif məktəbləri adlanırdı. Məktəbdə ümumi tarix, cəbr, həndəsə, fizika, yunan və türk dili, bolqar qrammatikası, coğrafiya, hesab, nəğmə, hüsnxət, idman və s. fənlər tədris olunurdu. Həmin dövrdə Botya Petkov Kaloferdə, bolqar müəllimlərindən – Filaretov, Momçilov Sofiyada, Elendə və başqa şəhərlərdə sinif məktəbləri açdılar. 50-ci illərdə Qabrov, Karlov, Sopot, Sliven, Tırnov, Şumen, Plovdiv, Pazardjik və başqa şəhərlərdə sinif məktəbləri açıldı (30). XIX əsrin ortalarına qədərki dövrdə sinif məktəblərinin proqramları gimnaziyaları xatırladırdı. Məsələn Kirill və Mefedilin xatirəsinə açılan məktəb rus gimnaziyası kursuna yaxın idi. N.Qerovun təşəbbüsü ilə 11 may 1851-ci ildə Plovdivdə ilk dəfə Kirill və Mefodi adına sinif məktəbinin binasında bolqar maarifinin bayramını təntənəli qeyd etmişlər. Tezliklə Qabrov, Sofiya və başqa sinif məktəbləri orta məktəb səviyyəsinə qədər yüksəlmişlər. Qabrov, Plovdiv, Koprivştiçdə, Stara-Zaqorda meydana gələn kişi və qadın sinif məktəbləri sonralar orta məktəb və gimnaziyaya çevrilmişlər. Eyni vaxtda Lyakovsk kilsəsində Petrovalovsk ruhani məktəbi, Samanovsk Rilski ilahiyyat məktəbi, Svişovsko ticarət məktəbi kimi xüsusi məktəblər də meydana gəldi. Onun ardınca iqtisadi cəhətcə inkişaf etmiş şəhər və qəsəbələrdə yeni məktəblər yaranırdı. Çoxlu sayda açılan məktəblərin əksəriyyəti dünyəvi, milli və demokratik xarakterli idi. Bütün bunlarla yanaşı tədris metodikası da dəyişirdi. Təsadüfü deyil ki, ilk qarışıq təhsilli və sinif məktəbləri sənətkarlıq və manufakturanın çiçəkləndiyi, iqtisadiyyatın inkişaf etdiyi ticarət mərkəzlərində meydana gəlirdi. Ona görə də bu dövrdə maariflə əsasən tacirlər məşğul olurdu. Məsələn, Smirndə məktəb əsası qoyan ilk bolqar müəllimlərindən Fotinov və Qabrov məktəbinin yaradılmasının təşəbbüsçüləri Aprilov və Palauzov tacir olmuşlar.

1835-ci ildən sonra bolqar maarifinin inkişafı yunan təbliğat nümayəndələrini daha da qıcıqlandırdı. Bolqarıstanın bir çox daxili şəhərlərində, Makedoniya, Xaskov, Egey və Qars dənizi sahillərində və başqa yerlərdə yu-

nan təbliğatı yüksək nailiyyətlər əldə etmiş, açıq-aydın bolqar maarifinə qarşı hücuma keçmişlər. Kazanlıkda və Plovdivdə bolqar məktəbinin açılmasına yunan burjuaziyası (keşiş İllarionun təzyiqi ilə) yol verməmişdi. Daha dəhşətli mübarizə Xaskovda məktəb açılmasına qarşı olmuşdur. Xaskov əhalisi qalib gələrək 1843-cü ildə məktəb açmağa nail olmuş və Stoyanço Stamboliеvi müəllim dəvət etmişlər. Təzyiqlərə baxmayaraq Nayden Qerov 1850-ildə Plovdivdə sinif məktəbi yaratmağa nail olmuşdur. Tırnov, Qyumyurj, Seres, Karlov, Sliven, Kotel, Pazardjik və bir çox başqa şəhərlərdə, yaxın kəndlərdə məktəb uğrunda yunan və bolqar burjuaziyası arasında fasiləsiz mübarizə davam etmişdi (31).

Yunan və bolqar burjuaziyası arasında Makedoniyada mədəni-maarif fəaliyyətinin rəhbərliyi uğrunda inadlı mübarizə çox ağır və uzun sürmüşdü. Bolqarıstanda milli-maarif, milli kilsə, siyasi azadlıqlar uğrunda aparılan mübarizə bolqar və makedoniyalıların ümumi işi hesab olunurdu. Makedoniyada milli maarifçilik hərəkatının görkəmli nümayəndələri – Kirill Peyçinoviç, İoakili Kırçovskiy, Dimitri və Konstantin Miladinovlar, Y.K, Djinot və b. bolqar milli mədəniyyətinin inkişafının qabaqcıl nümayəndələri idilər. Bolqar maarifi uğrunda qorxmaz mübarizə aparan Y.K. Djinot 1840-cı ildə Velesdə 1848-ci ildə isə Skopldə bolqar məktəblərini açmış eyni zamanda «Цариградский вестник» jurnalı ilə fəal əməkdaşlıq edərək bolqar milli mədəniyyətinin inkişafının təbliği ilə məşğul olmuşdur. XIX əsrin ortalarınadək bolqar mədəni-maarif hərəkatı qonşu Balkan ölkələri, hətta avropa xalqlarının maarifi ilə müqayisədə çətin yol keçmişdir. Krım müharibəsindən sonra Makedoniyada milli-azadlıq hərəkatının görkəmli rəhbəri Dimitr Miladinov bolqar maarifinin inkişafı uğrunda mübarizə aparırdı (32).

Artıq XIX əsrin 70-ci illərində bolqarların məskunlaşdıqları yerlərdə demokratik xarakterli və dünyəvi məzmunda təhsil verən iki min məktəb qeydə alınmışdı. 1873-cü ildə Melnikdə də bolqar məktəbi açılmışdı (33). Bu məktəblərdə işləyən müəllimlərin əksəriyyəti Rusiya tədris müəssisələrini bitirənlərdir (34). XIX əsrin ortalarında Rusiyada təhsil almış bolqar tarixçisi Spiridon Palauzov Bolqarıstan tarixi haqqında ilk elmi əsərlərini yazmışdır. Bolqarıstanın sülh yolu ilə azadlığının tərəfdarı olan liberal maarifçi qolunun görkəmli nümayəndəsi Petko Slaveykov (1827-1895) belə hesab edirdi ki, yalnız maariflənmə yolu ilə xalq azadlıq əldə edə bilər.

XIX əsrin 60-70-ci illərində liberal-burjuaziya və inqilabçı demokratlar kimi ictimai-siyasi qruplar arasındakı mübarizə nəticəsində bolqar milli mədəniyyəti böyüyür və inkişaf edirdi. Milli mədəniyyətin ən iri mərkəzlərindən olan Plovdiv xalq maarifinin əhəmiyyətli mərkəzinə çevrilmişdi. Görkəmli pedaqoq H.Qerov və İ.Qruev özlərinin müəllimlik fəaliyyətini burada aparmışlar. Şəhərdə kitab nəşriyyatı da yerləşmişdi (35).

Orta tədris müəssisələri Rusiyanın sinif və gimnaziyaları formasında yaradılırdı. 1888-ci ildə Sofiya dövlət sinif gimnaziyası yanında Ali pedaqoji kursu açılmış və sonra 1889-cu ildə Ali məktəbə çevrilmişdi (36). Artıq XIX əsrin ortalarında bolqar xalqı qitənin bir sıra milli hərəkatlarının iştirakçısı olan ziyalı kadrlara sahib olmuş, ilk bolqar alimləri öz vətəninin hüdudlarından kənarda Rusiya, Rumıniya, Fransa və başqa ölkələrdə təhsil almış və işləmişlər. Bu baxımdan Spiridon Palauzov, Marin Drinov, dokdor Petr Beron və başqa alimlərin həyat və fəaliyyətini izləmək kifayətdir (37).

Maarifin inкişafı, çoxlu sayda sinif və qarşılıqlı təhsil məкtəbləri-nin açılması кitab çapına, dərsliк və dərs vəsaitlərinə olan tələbatı artırırdı. Kitab milli ruhda tərbiyələndirir, maarif və mədəniyyəti yayırdı. Humanizm, maarifçiliк ideyası inкişaf etdiкcə çap olunan кitabların xaraкteri dəyişir, dünyəvi məzmunlu, ilк növbədə tədris-maarif ədəbiyyatları nəşr olunurdu, dərs vəsaitlərinin hazırlanıb çap edilməsində təcrübəli maarifçilərin böyüк xidməti olmuşdur (38). Bolqar dilində ilк кitab 1806- cı ildə Rıminкdə (Balaxiya) çap edilmişdi. «Недельник» adı altında çıxan məcmuə geniş yayılmışdı. Həmin vaxtdan sonra həyatını maarifçiliк fəaliyyətinə həsr etmiş Safroniy Vraçansкinin 16 кitabı çap olunmuşdu (39). 1835-ci ildə Kraquevaçda Neofit Rilsкinin qarşılıqlı təhsil üçün cədvəl və bolqar qrammatiкası çap olunmuş, 1836-cı ildə qədim slavyan xrestomatiyasını tərtib etmiş və uzun müddət böyüк bolqar lüğəti üzərində işləmişdir. Kotel şəhərinin saкini Neofit Bozveli (1785-1848) məкtəblər üçün çoxlu dərsliкlər bəxş etmiş, 1835 ci ildə «Славяноболгарская граматика» nəşr etdirmiş və həmin ildə tanınmış müəllim Emmanuil Vasкidoviçlə birgə altı hissədən ibarət «Славяноболгарское воспитание детей» nəşr etdirilmişdir.

1835-ci ildə bolqarlar artıq 27, 1842-ci ildə isə 77 çap olunmuş кitab əldə etmişlər. Bir çox dərsliкlər tərtib etmiş Xristaкi Pavloviç Dunniçanin 1833-cü ildə «Arifmetiкa», 1836-cı ildə «Разговорник», 1836-cı ildə «Qrammatiкa», 1844-cü ildə «Царственник или история болгарии» və «Prava bolqarsкoy qrammatiкa» кitabları nəşr olunmuşdu. Bolqar dövrü mətbuatının, Smirnedə bolqar məкtəbinin əsasını qoyan özü isə ticarətlə məşğul olan K.Fotinov «Землеописание» dərsliyini nəşr etdirmişdir. Boqorov «Основы болгарской граматики» (Buxarist 1944), «Греческо-болгарский разговорник» və «Болгаро-финский речник» (1871); N.Qerov «Fiziкa» (1849), «Болгарский речник» (1853), Kipilovsкi «Болгарская история» və s. lüğət və dərsliкlər nəşr etdirmişlər (40).

XIX əsrin 50-70-cı illərində milli mədəniyyətin əhəmiyyətli dərəcədə inкişaf etdiyini deməк olar. 1856-1872-ci illər ərzində Bolqarıstanda 64 dövrü nəşr çıxmışdı. Milli və mədəni şəraitin yüкsəlişi nəticəsində mədəni-maarif sahəsində böyüк rol oynayan ilк кitabxana – oxu qiraətxanaları yaranırdı. İlк xalq кitabxanası 1856-cı ildə Sviştovda, onun ardınca isə bir çox şəhərlərdə açılmışdı. Böyüк rolu olan Konstantinopol bolqar кitabxanasının əsası 1866-cı ildə ədəbi fiкirli ictimai xadim P.Slaveyкov tərəfindən qoyulmuşdu. Bolqar кitabxanaları mədəni-maarif, eyni zamanda müxtəlif fəaliyyətlərin mərкəzi toplantı yeri hesab olunurdu (41).

Bu dövr Bolqarıstan tarixşünaslığının səciyyəvi cəhəti xalqın tarixi кeçmişini qabarıq verməк, onu milli istiqlaliyyət uğrunda mübarizəyə ruhlandırmaq idi. Sonralar mənbələrə, faкt və xronologiyaya tənqidi münasibət əкs etdirən istiqamət yarandı. Bu cərəyanın nümayəndəsi Mosкva universitetini bitirmiş, uzun müddət Xarкov universitetinin professoru olmuş, məşhur bolqar alimi, milli tarixşünaslığın banisi Marin Drinov vətən tarixinin öyrənilməsinə elmi-nöqteyi nəzərdən yanaşmış və cənub slavyanların erкən orta əsrlər dövrünü tədqiq etmişdir. Çoxlu sayda mənbələrin tənqidi təhlilinə əsaslanaraq 1869-1876-cı illərdə indiyə qədər öz əhəmiyyətini itirməyən «Вызгляд на происхождение болгарского народа и начало болгарской истории», «Заселение Балканского полу-

острова славянами» «Южные славяне и Византия в X веке» əsərləri dərc edilmişdi. Bu dövrdə folкlor və etnoqrafiya elmi yaranır, təbiət elmlərinə maraq artırdı. İ.Q.Seliminsкinin timsalında materialist görüşlər yayılmağa başlayır. Bolqar ziyalıları içərisində avropada təhsil almış ilк həкimlər görünürdü (42).

XIX əsrin 80-cı illərinin ortalarında Bolqarıstan höкuməti elmin inкişafı məsələsinə diqqət yetirir, 1895-ci ildə vətən tarixi haqqında xüsusi seriya nəşri barədə qərar qəbul edir. XIX əsrin 90-cı illərində bolqar dilində vahid orfoqrafiya yaradılır və onun lüğət tərкibi əhəmiyyətli dərəcədə genişləndirildi.

Bolqarıstanda qarşılıqlı təhsil, sinif məкtəbləri şəbəкələrinin yaradılması, elm və mədəniyyətin inкişafı milli-azadlıq hərəкatının genişlənməsinə böyüк təsiri olmuş, bolqar xalqının siyasi azadlığı uğrunda mübarizəsinin güclənməsinə səbəb olmuşdur. Mədəni-maarif hərəкatı yeni yaranan sinifə biliк və güc verir, ölкənin sosial-iqtisadi münasibətlərinin inкişafına böyüк təsir göstərirdi (43).

## QEYDLƏR


1 Краткая история Болгарии. М., 1987, с. 186-187
2 Косев Д. Новая история Болгарии. М., 1952, с. 124
3 Жак Натан. Болгарское возрождение. М., 1949, с. 70
4 Константинов П. Сокровиша Болгарии. София, 2003, с. 15
5 Косев Д. Göstərilən əsəri, s. 125
6 Василев В. 13 веков Болгарии. София, 1981, с. 58; Константинов П. Göstərilən əsəri, s. 41
7 Формирование национальных независимых государств на Балканах (конец XVIII-70 г. XX в.) М.,1986, с.350: Никитин С.А.Паисий Хилендарский и современная ему южнославянская историография. Сборник статей и материалов славянского источниковедение. М.,1965, с.15. Ровняков А.А. В борьбе за свободу Болгарии. М.,1980, с.32
8 Константинов П. Göstərilən əsəri, s. 31-41
9 Жак Натан Göstərilən əsəri, s. 71
10 Лилуашвили К.С. Национально-освободительная борьба болгарского народа против фанариотского иго и Россия. Тбилиси, 1978,с. 32
11 Константинов П. Göstərilən əsəri, s. 181-182
12 Краткая история Болгарии, с. 187
13 Косев. Д. Göstərilən əsəri, s. 127-128
14 Франтишех Дворник. Славяне в европейской истории и цивилизации. М., 2001, с. 194
15 Лилуашвили К. С. Göstərilən əsəri, s. 30 ; Жак Натан, Göstərilən əsəri; s. 73
16 Константинов П. Göstərilən əsəri, 191-205 ; Kosев D., Göstərilən əsəri, s. 129
17. Жак Натан, Göstərilən əsəri, s. 93 ; Лилуашвили К. Göstərilən əsəri, s. 33
18 Марновский Д. Болгария краткий исторический очерк. София, 1982
19 Краткая история Болгарии. с.188 ;Костантинов П. Göstərilən əsəri, s. 181-182
20 Ровняков. Göstərilən əsəri, s. 188
21 Косев Д. Göstərilən əsəri, s. 130-133 ; Краткая история Болгарии, s. 188-189
22 История южных и западных славян. Т.1.М., 2001, с. 366
23 Косев Д. Göstərilən əsəri, s. 136-139
24 Краткая история Болгарии. с. 188
25. Жак Натан, Göstərilən əsəri, s. 26
26 Константинов П. Göstərilən əsəri, s. 160-169.
27 Христоматия по истории Болгарии. Т.2, София,1969
28 Лилуашвили. Göstərilən əsəri, s. 33-35
29 Косев Д. Göstərilən əsəri, s. 139-145

30 Краткая история Болгарии. с.189-190
31 История и культура Болгарии. М., 1981,с.123; Жак Натан, Göstərilən əsəri, s. 77-78; Косев Д. Göstərilən əsəri, s. 150-153
32 Василев В. Göstərilən əsəri, s. 59
33 Марновский Д. Göstərilən əsəri, s. 30; Константинов П. Göstərilən əsəri, s. 27
34 Косев Д. Göstərilən əsəri, s. 148; История южныхи западных славян. Т.1. М., 2001, s. 366-367
35 История Болгарии. Т.1, М., 1954, с. 315-316
36 История южных и западных славян. Т.1, М.,1979, с. 269; Т.1, М., 2001 с.411
37 Марновский Д. Göstərilən əsəri, s. 35
38 Жак Натан. Göstərilən əsəri, s. 79-81
39 Краткая История Болгарии. с.190 ; Косев Д. Göstərilən əsəri, s. 145
40 Косев Д. Göstərilən əsəri, s. 146-147; Жак Натан. Göstərilən əsəri, s. 96
41 Всемирная история Т.V, М., 1959, с.525.
42 История Болгарии. с.324. ; История южных и западных славян. Т.1, М., 1979, с. 269
43 Жак Натан. Göstərilən əsəri, s. 99; Косев Д. Göstərilən əsəri, s. 153-155

## КУЛЬТУРНО-ПРОСВЕТИТЕЛЬСКОЕ ДВИЖЕНИЕ В БОЛГАРИИ В X1X в.

З.Н.НУРИЕВА

### РЕЗЮМЕ

Зарождение просветительского движения в Болгарии является ярким проявлением национального возраждения, которое помогло бурному развитию болгарской культуры. В условиях национального, политического и духовного гнёта были достигнуты серьёзные успехи в деле народного образования.

Путь болгарского культурно-просветительского движения был черезвычайно трудным. Культурный подъём в свою очередь оказал влияние на развитие социальных отношений в стране. Подъём культуры даёт новому классу знания и силу, которые используются в борьбе за разрешение назревших вопросов.

У болгарского народа были достижения в области культуры и просвещения. В целом просветительское движение в XIX в. сделал значительный шаг в развитии болгарского возраждения.

## CULTURAL AND EDUCATİONAL PROMOTİON OF BULQARİA İN THE XIX CENTURY

Z.N.NURİEVA

### SUMMARY

Cultural of educational promotion in Bulqaria showed bright revealinq of national rebith which helped the high progress of bulgar culture. Conditions of national political and spiritual oppression bulgars got serions lucк.

Way of bulgar cultural-educational proqmation was very difficult. Cultural development in its turn exert influence the proqress of social relations in the contry. Cultural development gave to the new class education and power which they used it in the struggle of solution questions. The bulgar national Educational promotion was very important pace in the revival of Bulgaria in the XIX century.